# Yazıçı-ekoloqun “yaşıl” etüdləri

**Yazıçı-ekoloq Bəxtiyar Hüseynovun növbəti kitabı “Yaşıl dünya naminə” adlanır. İqlim dəyişikliklərindən irəli gələn fəsadlara, təbii fəlakətlərə qarşı mübarizəyə həsr olunmuş bu nəşrdə Bakıda keçiriləcək COP29 beynəlxalq sammitinə hazırlıqla bağlı tədbirlərdən bəhs edilir.**

Yeni kitabda dğnyada ekoloji tarazlığın pozulmasından doğan narahatlıq ifadə olunur və “yaşıl” dğnya naminə bğtğn səyləri birləşdirməyin vacibliyi həyati faktlarla diqqətə zatdırılır. Müəllif ətraf mğhitin mühafizəsi və təbii sərvətlərin zənginləşməsi istiqamətində görülən işlərlə bağlı Azərbaycanın təcrübəsini örnək kimi təqdim edir.

Kitabın əvvəlində qeyd edilir ki, Prezident İlham Əliyevin Bakıda keçiriləcək COP29 sammiti ilə əlaqədar ölkəmizdə 2024-cü ilin “Yaşıl dğnya naminə həmrəylik ili” elan olunması haqqında sərəncamı Azərbaycan təbiətinə göstərilən dövlət qayğısının daha bir ifadəsidir və eyni zamanda, ölkəmizin ekoloji təcrübəsini nğmunə kimi dğnya qarşısında nümayiş etdirməkdir.

Bəxtiyar Hğseynov bir yazızı-ekoloq kimi bu qayğıdan ruhlanaraq dövlət başçısının adıçəkilən sərəncamından irəli gələn vəzifələrə mənəvi töhfə olaraq “Yaşıl dğnya naminə” kitabını ərsəyə gətirib. Müəllif bununla bağlı yazıb: “Təbii ki, bu vəsaitdə üz düşüncələrimi oxucularla, eləcə də təbiətşünas alimlərlə, ekoloqlarla paylaşmağa çalışmışam. Kitabda təbiətlə bağlı problemlərin və onların həlli yollarının hamının diqqətini çəkəcəyinə əminəm”. Akademik, AMEA-nın vitse-prezidenti İradə Hğseynova kitaba yazdığı rəydə bildirir ki, bu vəsaitin ən ümdə cəhətlərindən biri Bakıda keçiriləcək sammitdə iştirak edəcək ekoloqlarla Azərbaycanın uğurlu ekoloji təcrübəsinin bölüşdürülməsi istəyidir.




Qeyd edək ki, “Yaşıl dğnya naminə” kitabı ekoloji problemlərin qoyuluşu və onların həlli yollarının göstərilməsi baxımından müəllifin əvvəlki əsərlərindən daha əhatəlidir. Azərbaycan təbiətşünaslığına mğhğm töhfə olan bu nəşrdən tədris müəssisələrində dərs vəsaiti kimi də istifadə edilə bilər.

Respublika.- 2024.- 28 avqust (№ 184).- S.9.